**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini əbədiləşdirmək, onun həyat və fəaliyyətinin, xalqımız qarşısındakı xidmətlərinin öyrənilməsi və gələcək nəsillərə çatdırılması məqsədi ilə 2008-ci ildə rayonumuzda sahəsi 2130 m olan müasir arxitekturalı, möhtəşəm Heydər Əliyev Muzeyi inşa edilmişdir.**



# Mərkəzin işi fərəh doğurur

Muzeyin tikintisinə 2007-ci ildə başlanmış, 2008-ci ilin may ayında istifadəyə verilmişdir. Muzey 2009-cu ilin may ayından AR Mədəniyyət və Turizm Nazirliyinin əmri ilə Mərkəz adlandırılmışdır. Mərkəzin rəsmi açılışı 2009-cu ilin oktyabr ayının 29-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə olmuşdur.

Mərkəz 3 mərtəbədən ibarətdir. I mərtəbədə olan kompyuter, rəssamlıq, şahmat, heykəltəraşlıq, aviamodelizm, "Bacarıqlı əllər" dərnəkləri 2008-ci ilin oktyabr ayından fəaliyyət göstərir. Kompyuter dərnəyində 200-ə yaxın məktəbli və gənclər kompyuterlə işləmək bacarığına və biliklərinə yiyələnirlər. Kompyuter kurslarını müvəffəqiyyətlə başa vuranlara sertifikat verilir. Rəssamlıq dərnəyinin 32 üzvü var. Dərnəkdə məşğul olan uşaqların tez-tez rəsmlərinin sərgisi təşkil edilir.

Şahmat dərnəyinin 40 nəfər üzvü var. Dərnək üçün nəzərdə tutulmuş otaqda həmçinin şahmat, dama yarışları da keçirilir. Əlamətdar və tarixi günlərlə əlaqədar rayon məktəbliləri və gənclər, o cümlədən rayonlararası 7 yarış keçirilmişdir. Yarışlarda ümumilikdə 350-dən artıq insan iştirak etmişdir. Yarışlar rayon şahmat məktəbi ilə birgə keçirilir.

Aviamodelizm dərnəyinin 26 üzvü var. Dərnək üçün ayrılmış otaq modellər hazırlamaqdan ötrü lazım olan alətlərlə təchiz olunmuşdur. "Bacarıqlı əllər" dərnəyində kiçik yaşlı məktəblilərə maraq və bacarıqlarına uyğun olaraq biçmə-tikmə, kağız və plastilindən, o cümlədən müxtəlif materiallardan fiqurlar, əl işləri hazırlamaq öyrədilir.

Dərnək üzvləri hazırladıqları əl işləri ilə respublika səviyyəli müsabiqələrdə iştirak edirlər. Dərnəyin





70-dən artıq üzvü var. Dərnəklərin fəaliyyəti məktəblilərin yay tətili müddətində daha da canlandırılır.

II mərtəbə ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən ümumi sahəsi 600 m olan 3 ekspozisiya zalından ibarətdir. Zallarda dahi şəxsiyyətlə bağlı filmləri izləmək üçün iki irihəcmli monitor quraşdırılmışdır. Ekspozisiyanın tərtibatı və planı Heydər Əliyev Fondu tərəfindən verilmişdir. İndiyə kimi ekspozisiya zalını 5000-dən artıq insan ziyarət etmişdir.

Mərkəzin III mərtəbəsində M.F.Axundov adına Milli kitabxananın köməkliyi ilə yaradılmış, fondu 5000-ə yaxın olan kitabxana, elektron kitabxana, kompyuter kabineti, Heydər Əliyev irsinin araşdırma mərkəzi fəaliyyət göstərir. Kitabxanada Azərbaycan dili ilə yanaşı rus dilində, xarici dildə kitab, jurnal və CD, DVD-lər yerləşdirilmişdir. İndiyədək yüzlərlə insan bu xidmətlərdən yararlanmışdır.

2009-cu ilin fevral ayından Heydər Əliyev Mərkəzi nəzdində ümummilli liderlə bağlı, dövrü mətbuat materiallarını, video-foto sənədlərini, xatirələri toplayacaq 18 nəfərdən ibarət tədqiqat qrupu yaradılıb və fəaliyyət göstərir. İndiyə kimi tədqiqat qrupu ulu öndərlə bağlı 100-dən artıq foto, vaxtı ilə liderin İsmayıllıya səfərlərinin şahidi olmuş insanların xatirələrinin video, foto və əlyazmalarını toplayaraq Mərkəzin fonduna daxil etmiş və onların yerli mətbuat orqanlarında dərc olunmasını təmin etmişlər. Bu istiqamətdə iş davam etdirilir.

Bunlardan əlavə bu möhtəşəm binanın daxilində kiçik ATS, Server otağı, mətbəx, konfrans zalı mövcuddur. Bütün otaqlar internetlə təmin olunub. Binanın qızdırılması üçün ayrıca qazanxana tikilib istifadəyə verilmişdir. Binanın daxilində normal temperatur yaratmaq üçün zal və otaqlar kondisionerlərlə təchiz olunmuşdur.

● **Elçin MƏMMƏDOV,**
*Heydər Əliyev Mərkəzinin direktoru*

**Redaksiyadan.** Məmmədov Elçin Rafiq oğlu 1976-cı ildə İsmayıllı rayonu Gideyli kəndində anadan olub. 1994-1997-ci illərdə ordu sıralarında xidmət edib. 1999-2004-cü illərdə ADPU-nin filologiya (Azərbaycan dili və ədəbiyyatı) fakültəsində ali təhsil alıb. 2004-cü ildən İsmayıllı şəhər 5 saylı orta məktəbində tərbiyə işləri üzrə direktor müavini, 2008-ci ilin avqust ayından Heydər Əliyev Mərkəzinin direktoru vəzifəsində çalışır.

Ailəlidir. 3 övladı var.